**Sadıqova A.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.68.139-151**
**UOT: 314.727.2**

# Əhali miqrasiyasının nəzəri və metodoloji əsasları

**Xülasə:** Məqalədə, əhali, miqrasiya, demoqrafiya, əhali mobilliyi, əhali miqrasiyası ilə bağlı anlayışlar müqayisəli təhlil edilr. Əhali miqrasiyasının nəzəri və metodolojı əsasları araşdırılaraq bu sahədə tanınmış bir sıra alim və mütəxəssislərinin irəli sürdükləri elmi fikirlərlər nəzərdən keçirilərək bir sıra təkliflər irəli sürülür.

**Açar sözlər:** əhali; miqrasiya; əhali miqrasiyası; əhali mobilliyi; miqrasiya prosesləri; demoqrafiya, daxili miqrasiya; xarici miqrasiya.

Aparılmış araşdırmalarla müəyyən edilmişdir ki, miqrasiya proseslərinin çoxcəhətliliyi və miqrasiya prosesləri ilə bağlı aparılan elmi tədqiqatlarda nəzəri üsulların ziddiyyətli olması miqrasiya və əhali miqrasiyası ilə bağlı müxtəlif anlayışların və şərhlərinin formalaşmasına gətirib çıxarmışdır. Bu baxımdan əhali miqrasiyasının nəzəri və metodoloju əsaslarının təhlilinə keçməzdən öncə, əhaliyə və miqrasiyaya verilən anlayışları, əhali miqrasiyanın göstəriciləri, əmələ gəlmə səbəbləri və növləri ilə bağlı anlayışları nəzərdən keçirək.

Əhali miqrasiyası iki söz birləşməsindən "əhali" və "miqrasiya" sözlərindən əmələ gəlmişdir. Hüquq ensiklopedik lüğətlərdə və ədəbiyyatda hər iki sözə fərqli anlayışlar verilir. İlk növbədə əhali anlayışını nəzərdən keçirək. Hüquq ensiklopedik mənbələrin birində göstərilir ki, Əhali – Yer kürəsində və yaxud konkret, ərazidə, ölkədə, şəhər, rayon və digər yerlərdə yaşayan adamların məcmusudur [2, s. 357].

Digər mənbədə göstərilir ki, Əhali - Yer kürəsində və ya dünyanın konkret hansısa hissəsində (ölkə, qitə, region, ölkələr qrupu) daima yenidən istehsal nəticəsində yenilənən və yaşayan insanların toplusudur [19].

Əhaliyə verilən anlayışlardan göründüyü kimi, konkret olaraq yaşayış ərazidən aslı olmayaraq insanların birgə yaşamalarına, toplumuna deyilir. Əhali göstəriciləri aşağıdakılardan ibarətdir: əhalinin sayı və onun artım dinamikası; demoqrafik proseslərin intensivliyi: doğum, ölüm, təbii artım, kəbin; yerləşmə, urbanizasiya, miqrasiya; yaş-cins tərkibi və ailə göstəriciləri; təhsil səviyyəsi; irq, dil, etnos və din tərkibi; ac adamların sayı, onların kəmiyyət və keyfiyyət göstəriciləri.

Hər il dünya əhalisinin artım dinamikası müşaidə olunur. Dünya əhalisinin artımı sayının kvadrat tempi ilə artmasına hiberbolik qanun adlanır.

Əhali artımının qanunauyğunluqlarını, onun sosial-iqtisadi şəraitdən, təbii amillərdən asılılığını, miqrasiyanı, əhali sıxlığını və onun paylanmasını öyrənən elmə demoqrafiya deyilir. Demoqrafiya (qədim yunan - xalq, qədim yunan - yazıram) - əhali artımının qanuna uyğunluqları,

♦ **Sadıqova Afaq Nadir qızı** – "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsin nəznində "Hüquq və İnsan Haqları İnstitutu" publik hüquqi şəxsin "Mülki hüquq, mülki proses, sosial iqtisadi huquqlar" şöbəsinin böyük elmi işçisi (Azərbaycan). E-mail: afaqsadiqova6@gmail.com

onun sosial-iqtisadi şəraitdən, təbii amillərdən asılılığını, miqrasiyanı, əhali sıxlığını və onun paylanmasını öyrənən elmdir [20].

Hüquqi və digər mənbələrdə əhali miqrasiyası ifadəsində "əhali" anlayışından fərqli olaraq "miqrasiya"ya tədqiq edilən elm sahələrinə (iqtisadiyyat, tarix, siyasi elm, hüquq və s.) uyğun olaraq müxtəlif anlayışlar verilir. Bu mənbələrdə miqrasiyaya verilən anlayışlar məzmununa görə müxtəlif olsa da, lakin bu anlayışların hamısı eyni hüquqi məna kəsb edir. Mənbələrin birində göstərilir ki, Miqrasiya (latın dilində: *migratio* - köçmək) və ya köçetmə — insanların bir ölkədən digər ölkəyə həmişəlik və ya uzun müddətə köçməsidir [21].

Digər mənbədə miqrasiya insanların kütləvi "köçürülməsi, yerdəyişməsi" kimi başa düşülür [13, s. 309].

Qeyd etmək lazımdır ki, miqrasiyanın ilk anlayışını və elmi əsaslarını 1885-1889-cu illərdə Qərb alimi və sosioloqu E.Ravenşteyn tərəfindən verilmişdir. E.Ravenşteyn miqrasiyanı "insanın öz yaşayış yerini daimi və ya müvəqqəti dəyişməsi" kimi şərh etmişdir [9, s. 45].

Hüquq ədəbiyyatında miqrasiya sözü ilə bağlı daha fərqli yanaşmalar B.S. Xorevə və V.N.Çapekə məxsusdur. Onların fikrincə "Miqrasiya" sözün ilkin mənasında ingilis dilindəki "miqrateo"- piyada gəzmək, səyahət etmək" feli ilə bağlıdır [16, s. 39].

Hüquq ədəbiyyatlarından fərqli olaraq demoqrafik ensiklopedik lüğətlərdə məzmunca miqrasiya bir qədər fərqli anlayış verilir. Məsələn, "Demoqrafik ensiklopedik lüğət"də göstərilir ki, miqrasiya (latınca-köçmə) insanların (miqrantların) bu və ya digər ərazilərin sərhədlərindən keçməsi ilə həmişəlik və ya hansısa uzun bir müddətə yaşayış yerlərini dəyişməsidir [7, s. 251].

Göründüyü kimi hüquq ədəbiyyatında və mənbələrdə məzmununa görə miqrasiyaya bir-birindən fərqli anlayışlar verilsə də, lakin bu anlayışların əsas hüquqi mahiyyəti eynidir. Yəni miqrasiyanın kökündə insanların bir yaşayış yerindən digər yaşayış yerinə köçməsi, hərəkət etməsi durur.

Qeyd etmək lazımdır ki, milli qanunvericiliyimizdə əhali miqrasiyası ilə bağlı anlayış öz əksini tapmasa da, lakin qanunvericiliyimizdə əmək miqrasiyası ilə bağlı hüquqi norma təsbit edilmişdir. Belə ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin "Əsas anlayışlar" adlı 3.0.9-cu maddəsində göstərilir ki, əmək miqrasiyası – fiziki şəxsin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya etməklə yaşayış yerini dəyişməsi deməkdir [1, s. 4].

Miqrasiya qanunvericiliyində əhali miqrasiyası anlayışı olmadığı üçün təklif edirik ki, ölkəmizdə gedən miqrasiya proseslərinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsininə yeni mətndə "əhali miqrasiyası" anlayışı əlavə edilsin. Düşünürəm ki, bu təklif ölkəmizdə əhali miqrasiyasının qanunuyğun tənzimlənməsinə köməklik edəcəkdir.

Tanınmış alim D.M.Qvişianin miqrasiya anlayışına bir qədər fərqli yanaşır. O miqrasiyanı həm sosial-iqtisadi hadisə həm də demoqrafik proses kimi qəbul edir. Onun fikrinə görə miqrasiya insanların ölkələr, rayonlar, qəsəbələr arasında icra etdikləri yerdəyişmələr toplusunu təcəssüm etdirən sosial-iqtisadi və demoqrafik proses kimi xarakterizə olunur [10, s. 159].

İstər hüquq ədəbiyyatında, istərsədə ayrı-ayrı mənbələrdə "miqrasiya" anlayışının müxtəlif izahlarına rast gəlinir ki, bu izahlarda diqqət mövcud sosial-iqtisadi hadisənin müxtəlif aspektlərində cəmləşir. Məsələn, A.S.Axiezer ona əsaslanır ki, əhalinin miqrasiyası öz zəruriliyi üzrə dəyişən həyat obrazı elementini, əhalinin bir hissəsinin, onun qruplarının dəyərlərini xarakterizə edən, yaşayış və əmək yerlərinin müvəqqəti və ya daimi dəyişməsilə bağlı, eləcə də məcburi köçməni təcəssüm etdirir. Bəzi alimlər miqrasiyanın yaşayış və əməyin tətbiqi yerlərinin

dəyişilməsi əsasında həyata keçirildiyi fikrini irəli sürürlər. Məsələn, iqtisadçı alim Q.S. Veçkanov miqrasiyanı "şəxsi, kollektiv və ictimai maraqların uyğunlaşdırılması ilə yaşayış və əməyin tətbiqi yerlərinin sərbəst dəyişdirilməsi" kimi nəzərdən keçirir [5, s. 33].

Beynəlxalq hüquq normalarına və dövlətdaxili qanunlara əsasən əhalinin yerdəyişməsi zamanı keçilən sərhədlərin statusundan asılı olaraq miqrasiyanın iki tipi mövcuddur daxili miqrasiya və xarici miqrasiya. Daxili miqrasiya - bir ölkənin ərazisində bir yaşayış məntəqəsindən digər yaşayış məntəqəsinə köçmə prosesinə deyilir. Yəni, daxili miqrasiya dedikdə, insanların eyni ölkənin hüdudları daxilində bir ərazidən digər əraziyə köçməsi kimi başa düşülür. Xarici miqrasiya - dövlət sərhədlərini keçməklə baş tutan miqrasiyaya deyilir. Xarici miqrasiya anlayışı ölkəyə daxil olanlar və ölkəni tərk edənlərin sayı arasındakı fərqi əks etdirir.

Beynəlxalq hüquq normalarına və dövlətdaxili qanunlara əsasən baş tutma yollarına görə miqrasiyanın iki forması qanuni miqrasiya və qeyri-qanuni miqrasiya müəyyən edilir. Qanuni miqrasiya - qanuna uyğun olan, qanunla icazə verilən və qanuna uyğun şəkildə həyata keçirilən miqrasiya deyilir. Qeyri-qanuni miqrasiya – qanuna zidd yolla həyata keçirilən miqrasiyaya deyilir. Həmçinin bu miqrasiyaya qanunla tənzimlənməyən və qeyri-formal miqrasiyanı aid etmək olar.

Hüquqi doktrinada "əhali miqrasiyası" termininin müəyyənləşdirilməsinə müxtəlif prizmadan baxılması bir neçə ardıcıl nəticələrin çıxarılmasına imkan verir: Miqrasiyanın müəyyənləşdirilməsində müxtəlif variantların mövcudluğu çoxfaktorlu olması ilə bağlı olub özünü elmi yanaşmalarda əks etdirir; miqrasiya sahəsini araşdıran tədqiqatçılar miqrasiya proseslərinin əsas əlamətləri və mahiyyəti kimi ərazi sərhədlərinin, yaşayışdaxili yerdəyişmələr üzrə miqrantların köçməsini, müəyyən ərazilərdə qalma müddəti və ya məskunlaşma məqsədləri üzrə səbəblərin olması və ya olmamasını qəbul edirlər.

Əhalinin bir yaşayış yerindən digərinə yerdəyişmə prosesi nəticəsində yaranan miqrasiya prosesi əhalinin müxtəlif kateqoriyalarına aid edilir. Qeyd etmək lazımdır ki, miqrasiya prosesləri daimi yaşayış yerini dəyişmədən (müvəqqəti), yaxud daimi yaşayış yerini dəyişməklə həyata keçirilə bilir. Məsələn, hər hansı bir ərazidə daimi yaşamaq üçün gələn şəxslər, yalnız daimi yaşamaq üçün gələnlərin sayını artırdığı halda, müvəqqəti yaşayan əhalinin sayına heç bir təsir göstərmir. Bu proses əhalinin sayına təsir etmir. Belə bir halda müvəqqəti məskunlaşan əhalinin sayı, miqrasiya etmiş daimi əhalinin sayını keçir.

Qeyd etmək lazımdır ki, miqrasiyaya proseslərinin özünəməxsus bir sıra əlamətləri vardır. Bu əlamətlərdən biri inzibati sərhədlərin keçilməsi (dövlət, region, yaşayış məntəqəsi və s.) hesab olunur. Bu halda xarici miqrasiyanı (emiqrasiya və immiqrasiya) və daxili miqrasiyanı fərqləndirirlər. Xarici miqrasiya ilk növbədə dövlət sərhədlərinin keçilməsi ilə bağlıdır (və o qitələrarası və daxili olmaqla iki yerə bölünür). Daxili miqrasiya ilk öncə bir ölkə daxilində yerdəyişmə ilə bağlıdır. Həmin miqrasiyanın kənd (kənd-şəhər), şəhər (şəhər – kənd), şəhərlərarası (şəhər-şəhər), və kəndarası (kənd və kənd) istqamətlərini fərqləndirirlər [7, s. 251].

Miqrasiya prosesləri dövrlülük parametrlərinə görə də - daimi, müvəqqəti, mövsümi və müəyyən müddət dairəvi xüsusiyyətlərinə əsasən fərqləndirilir. Sosial - iqtisadi səbəblərə görə baş verən miqrasiya proseslərinə yeni iş yerinin, yüksək əmək haqqının, azad kənd təsərrüfatı ərazilərinin axtarışı və s. aiddir. Bu zaman əsas məqsəd həyat şəraitinin yaxşılaşdırılması, yaşayış məkanında yüksək sosial-iqtisadi statusa nail olmaqdır. Siyasi və hüquqi səbəblərdən baş verən miqrasiya prosesləri digər miqrasiya proseslərindən öz çəkisinə görə fərqlənir. Bu halda insanlar mövcud hakimiyyətin ideoloji rejiminə qarşı çıxaraq öz dini inancına, siyasi baxışlarına, irqinə, milliyyətinə və sosial qrup mənsubiyyətinə görə və ya pozulmuş hüquqlarının bərpası ilə əlaqədar

təqiblərə məruz qaldığı üçünhəmin dövlətin ərazisindən qaçır və ya həmin ölkəni məcburi tərk edir. Hərbi səbəblərdən baş verən miqrasiya proseslərinə evakuasiya, təkrar evakuasiya, deportasiya və s. aid edilir. Sonuncu miqrasiya növlərindən biri könüllü miqrasiyadır ki, bu zaman insanlar öz arzularından asılı olaraq qərar qəbul edirlər.

Aparılmış araşdırma ilə müəyyən edilmişdir ki, hüquq ədəbiyyatında miqrasiyanın növlərinin aşağıdakı kimi sistemləşdirilməsi geniş yayılmışdır: daxili miqrasiya; xarici miqrasiya; bir istiqamətli (geri dönməyi nəzərdə tutmayan) miqrasiya; daimi yaşayış yerinə emiqrasiya; müvəqqəti (qayıdışı nəzərdə tutan) miqrasiya; uzunmüddətli (6 aydan çox müddətdə davam edən) miqrasiya; mövsümi miqrasiya; ziyarət məqsədli miqrasiya; tranzit (sərhədyanı) miqrasiya; məcburi miqrasiya və könüllü miqrasiya.

Azərbaycan alimləri isə miqrasiyanın növləri üzrə bölgünü aşağıdakı kimi fərqləndirirlər: beynəlxalq (xarici), ölkədən getmək və ya ölkəyə gəlmək, dövlətdaxili, daimi, dövri və ya vaxtaşırı, bir yaşayış yerindən digərinə işə və təhsilə (gündəlik) yerdəyişmə, epizodik (müxtəlif istiqamətlərə müntəzəm işgüzar və ya digər səfərlər və nikah mühacirəti (ailə qurmaqla əlaqədar yaşayış yerinin dəyişməsi) [3, s. 27].

Könüllü və məcburi, müvəqqəti yaxud daimi, leqal və qeyri-qanuni miqrantlara münasibətdə dövlət siyasəti diferensial yanaşmaya əsaslanır. Bu prosesə miqrantların status vəziyyəti, peşəsi, ixtisas və gender fərqləri, demoqrafik, ailə və nikah münasibətləri, etnik mənsubiyyəti və sair öz dərin təsirini göstərir. Dövlətin miqrasiya siyasətində stimullaşdırıcı-liberal, yoxsa konservtiv-məhdudlaşdırıcı, sərt qadağa tədbirlərinə üstünlük verilməsi məhz miqrantların kateqorial təsnifat və 16 meyarlarının dəqiq ümumiləşdirilməsi, kompleks-inteqral miqrasiya tipologiyasının işlənilməsi ilə bağlıdır. Miqrasiya prosesləri özündə aşağıdakı mərhələləri ehtiva edir: İlkin hazırlıq, xüsusi miqrasiya, yeni həyat fəaliyyəti şərtlərinə adaptasiya, identifikasiya. Birinci mərhələdə əhali hərəkətliliyinin ərazi üzrə formalaşması prosesi təmin olunur. İkinci mərhələdə əhali məskunlaşması prosesi reallaşdırılır. Son mərhələdə miqrantların yeni iş yerlərinə adaptasiya prosesi həyata keçirilir.

Miqrasiya proseslərinin əsas xüsusiyyətləri kimi miqrasiya mobilliyinin mahiyyətinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Miqrasiya proseslərinin əsas mərhələlərində əhalinin miqrasiya yönümlü hərəkətliliyi baş verir. Müəyyən ərazi və vaxt çərçivəsində əhali məskunlaşması prosesinin məcmusu miqrasiya axını prosesi hesab olunur. Miqrasiya prosesinin strukturunu vətəndaşların cinsinə və yaşına, ailə vəziyyətinə, milliyyətinə, ixtisasına və s. bölmək olar. Miqrasiya axınları coğrafi rayonlara, məskunlaşma tiplərinə, yerləşmə məkanına və s. görə strukturlaşdırılır [15, s 32-33].

Qeyd etmək lazımdır ki, bütün dünyada sosial-iqtisadi inkişafın əsas faktoru kimi daha çox ölkələr beynəlxalq əmək miqrasiyasının üzvünə çevrilirlər. Bu da öz növbəsində çevik əmək bazarının formalaşmasına imkan yaradır. Bu baxımdan deyə bilərik ki, miqrasiya prosesi mahiyyət etibarilə bir çox dinamik prosesləri özündə inteqrasiya etməklə cəmiyyətin inkişafında əhəmiyyətli rol oynayır. Ümumiyyətlə, əhalinin miqrasiya prosesləri öyrənilərkən aşağıdakı məsələlər nəzərə alınır: miqrasiya prosesi, onun nəticələri, miqrantlar və ictimai həyatda baş verən hadisələr və s. Bu məsələlər əhalinin miqrasiya formalarının təsnifatına zərurət yaradır. Ümumiyyətlə, miqrasiya formalarının təsnifatının əsasını istehsal və qeyriistehsalla bağlı olaraq iki qrupa bölmək mümkündür. Miqrasiya proseslərinin istehsalla bağlı forması ,əsasən, sənaye, kənd təsərrüfatı və s. sahələrlə bağlıdır. Miqrasiya proseslərinin qeyri-istehsalla bağlı sahələri, əsasən, əhalinin xidmət, istehlak, istirahət və təhsillə bağlı istiqamətlərini əhatə edir.

Qeyd edildiyi kimi miqrasiya əsas etibarilə yaşayış yerinin və iş yerinin dəyişdirilməsi ilə bağlı insanların yerdəyişmə prosesidir. Çox vaxt bu prosesə əhalinin miqrasiyası da deyilir. Əhali miqrasiyasılatın sözü "*Migratio*" olub mənası köçürülmə, yəni insanların bir bölgədən (əyalətdən) digərinə, bəzi hallarda böyük qruplara və uzun məsafələrə köçürülməsidir [22].

Miqrasiya sahəsində müxtəlif tədqiqatçı alimlər "əhali miqrasiyası" anlayışına bir-birindən fərqli anlayışlar verirlər. Məsələn, İngilis alimi E.G. Ravenşteyn miqrasiya sahəsində ilk nəzəri araşdırmalardan birinin müəllifidir (1885). Ravenşteyn, Böyük Britaniya və Şimali Amerikadakı miqrasiya proseslərini araşdıraraq on bir miqrasiya qanununu əsas götürərək miqrasiya sahəsindəki bir çox nəzəriyyəni hazırlamışdır. Əsas nəzəriyyələr aşağıdakılardır:

a) əksər köçlər qısa məsafələrdə həyata keçirilir;
b) ərazi mərkəzi nə qədər böyükdürsə, təsiri bir o qədər cəlbedicidir;
c) hər miqrasiya axınının öz əks axını var;
d) böyük şəhərlərin böyüməsi, əsasən təbii artımdan çox, əhalinin köçü ilə əlaqədardır;
e) miqrasiyanın masştabı sənaye və ticarətin inkişafı ilə və xüsusilə nəqliyyatın inkişafı ilə artır;
ə) miqrasiyanın iqtisadi səbəbləri həlledicidir.

Rus alimi V.A. İontsev bildirir ki, "Əhali miqrasiyası" təriflərinin sayı bu təriflərin müəlliflərin sayı ilə eynidir. O, yalnız yerli nəşrlərdə "Əhali miqrasiyası" ilə bağlı təxminən 36 fərqli anlayış göstərmişdir [9, s. 19]. Xarici və yerli ədəbiyyatın təhlili əsasında V.A. İontsev həm də əhali miqrasiyasının nəzəri anlayışında istiqamətlərin ən mükəmməl təsnifatını hazırlamışdır. Belə ki, o, əhali miqrasiyasının öyrənilməsi üçün 45 elmi istiqamət, nəzəriyyə və konsepsiyanı birləşdirən 17 fərqli yanaşmadan istifadə etmişdir. Bunlardan 5 nəzəriyyə iqtisadi yanaşma, 5 sosioloji yanaşma, 4 sırf miqrasiya yanaşması, 3 demoqrafik yanaşma, 2 tarixi, tipoloji, siyasi və hər biri digər doqquz yanaşma üzərində qurulur [12, s.18].

Əhali miqrasiyası coğrafi olaraq paylanmış (qitələr, ölkələr, ölkələr daxilində bölgələr) təbii ehtiyatların və istehsal vasitələrinin işçi qüvvəsi ilə əlaqəsini təmin edir, əhalinin iş, mənzil, dolanışıq, sosial və peşə hərəkətliliyi, dəyişkənlik ehtiyaclarını ödəməsinə kömək edir,əhalinin sosial vəziyyətini və həyatın digər xüsusiyyətlərini müəyyən edir.

Əhali miqrasiyası ilə bağlı fərqli fikir irəli sürən tanınmış rus alimi O.D.Vorobyova əsərlərində yazır ki, əhalinin miqrasiyası – "inzibati ərazi vahidlərinin daimi yaşayış və ya ərazidə müvəqqəti qalma yerlərini dəyişdirmək üçün həm xarici, həm də daxili sərhədləri keçməklə əlaqəli əhalinin istənilən yerdəyişməsidir. Hər hansı işin həyata keçirilməsi üçün, hansı faktorların meydana gəldiyinin təsirindən asılı olmayaraq - cəlb etmək və ya itələmək gücünə malikdir" [6, s. 35].

Qeyd etmək lazımdır ki, son illərdə dünyada gedən siyasi hadisələr nəticəsində miqrantların sayı xeyli dərəcədə artmışdır. Bunu beynəlxalq təşkilatların hesabatlarından da görmək olar. Məsələn,Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Məsələlər Departamentinin hesabatına görə, 11 sentyabr 2013-cü ildə nəşr olunan dünyada miqrantların sayı 232 milyon və ya dünya əhalisinin 3,2% təşkil etmişdir. Dünyanın ən böyük miqrasiya dəhlizləri 13 milyon miqrantla Meksika və ABŞ hesab edilirlər. Rusiya - Ukrayna - 3,5 milyon, Ukrayna - Rusiya - 2,9 milyon, Qazaxıstan - Rusiya - 2,5 milyon miqrant təşkil edir [17].

Aparılmış təhlillər onu deməyə əsas verir ki, istər beynəlxalq təşkilatların, istərsə də dövlətlərin əhali miqrasiyasına dair verdikləri rəsmi məlumatlar həmişə baş verənlərin tam mənzərəsini göstərmir. Belə ki, başqa bir ölkəyə təhsil almaq üçün gələn tələbələr, turizm vizası ilə

daxil olan miqrantlar, qanunsuz əmək fəaliyyəti ilə məşqul olan miqrantların üçoturəsmi məlumatlara daxil edilmir. Habelə, iş adı ilə gəlib heç bir yerdə qeydiyyatdan keçməmiş miqrantlar da rəsmi məlumatlara daxil edilmir. Bu baxımdanəhali miqrasiyasına dair olan statistik məlumatlar çox vaxt həqiqəti özündə əks etdirmir. Lakin dünyanın elə dövlətləri var ki, bu dövlətlərlə bağlı beynəlxalq təşkilatların əhali miqrasiyası ilə bağlı verdikləri rəsmi məlumatlar həqiqəti özündə əks etdirir. Məsələn, 2013-cü ildə BMT-nin hesablamalarma görə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ərazisindəki bevnəlxalq miqrant sayna görə dünyada 5-ci yeri tutmuşdur. Öz əhalisi 9.2 milyon olan bu ölkədə mirantlarn da sayı 7,8 milyon təşkil etmişdir. Bütövlükdə region əhalisinin 43 faizini təşkil edən miqrantlarn sayının nəinki azalacağı, əksinə artacağı şübhə doğurmur [18. s. 62].

Bu məlumatdan göründüyü kimi dünyanın hər yerindən Birləşmiş Ərəb Əmirliklərinə gələn miqrantların sayı, demək olar ki, yerli əhalinin sayına bərabərdir. Fikrimizcə, miqrantların BƏƏ-nə güclü axının başlıca səbəbi iş qüvvəsinə olan təlabat və miqrantlara yüksək əmək haqqlarının verilməsi ilə bağlıdır.Ona görə də öz maddi rifahını artırmağı arzulayan miqrantlar işçi qüvvəsinin daha çox qiymətləndirildiyi və pul qazanmaq imkanı olan ölkələrdən biri olan BƏƏ gedirlər. Bu baxımdan BƏƏ ərazisindəki bevnəlxalq miqrantlarla bağlı statistik məlumatlar həqiqəti özündə əks etdirir.

Müasir qloballaşan dünyada texnoloji, elmi-texniki tərəqqi, dünya təsərrüfat sisteminin inkişafı miqrasiya proseslərinin əsas xüsusiyyətlərinin dəyişilməsinə səbəb olmuşdur. Bu nöqteyi-nəzərdən dünyada sosial-iqtisadi proseslərin əsas dinamikasını müəyyən edən amillər kimi əhalinin mobilliyi və miqrasiyası diqqəti cəlb edir. Əhalinin mobilliyi dedikdə - əhalinin hərəkətliliyi, köçürülməsi və yerləşdirilməsi kimi proseslərini özündə ehtiva edir. Ədəbiyyatda əhalinin mobilliyi ilə bağlı fərqli fikirlər mövcüddur. Məsələn, bəzi iqtisadçı alimlər işçilərin hərəkətliliyini, yerdəyişmə kimi prosesləri əhali mobilliyi kimi qəbul edir. Digər qrup alimlər isə mobillik prosesini insanların həm məkan, həm də onların keyfiyyət dəyişikliyi kimi qəbul etmişlər. Digər qrup alimlər isə əhali mobilliyi mümkün və real miqrasiya kimi baxılmaqla yanaşı, əhalinin öz ərazi statusunun yerdəyişməsinə hazır olması kimi yanaşılırdı.

Fikrimizcə, əhalinin mobillyi dedikdə - ayrı-ayrı şəxslərin bir yerdən digər yerə miqrasiya etmələri kimi başa düşülməməlidir. Əhalinin mobillyi geniş əhali kütləsinin miqrasiya proseslərində iştirakı nəzərdə tutulmalıdır. Çünki bu proseslərə həm məcburi həm də könüllü miqrasiya növləri daxildir. Bu nöqteyi nəzərdən əhalinin mobilliyi miqrasiya proseslərinin əsas tərkib hissəsini təşkil etmiş olur.

Əhali miqrasiyası ilə bağlı daha fərqli yanaşma iqtisadçı alim, prof., AMEA-nin müxbir üzvi, Ş.Muradova məxsusdur. Onun fikrincə, sözün geniş mənasında əhalinin miqrasiyası dedikdə, əhalinin ərazilər üzərində hər hansı bir formada kütləvi halda yerləşməsi, məskunlaşması, sözün dar mənasında isə, onların nisbətən müəyyən bir müddət ərzində öz yaşayış yerlərini dəyişməsi başa düşülür [4, s. 402].

Qeyd etmək lazımdır ki, əhalinin və əmək resurslarının miqrasiyası ərazinin mobilliyi əsasında yaranan proses kimi çıxış edir. Əhalinin miqrasiyası yerdəyişmə, köçmə (məsələn, əhalinin ölkə daxilində və ya bir ölkədən digərinə köçməsi) mənasını verir. Əhalinin miqrasiyası cəmiyyətin sosial - iqtisadi həyatında xüsusi rol oynayır. Bu bir tərəfdən, cəmiyyətin həyatındakı dəyişikliklərə qarşı tam həssas olan proses kimi çıxış edir, digər tərəfdən isə, öz növbəsində bu dəyişikliklərin dinamik və struktur parametrlərinin formalaşmasına böyük təsir göstərən mühüm amildir.

Əhali miqrasiyası ilə bağlı digər yanaşma V.Perevedentsevə məxsusdur. O qeyd edir ki, əhalinin miqrasiyası özü ilə “cəmiyyətin normal fəaliyyəti şərtlərindən birini” təcəssüm etdirir;

“onun köməyi ilə ölkə ərazisində əmək ehtiyatlarının optimal şəkildə yerbəyer edilməsinə nail olmaq olar, bu isə regionların iqtisadi inkişaf səviyyələrinin bərabərləşməsinə, şəhər və kənd arasındakı sosial-iqtisadi və mədəni-məişət fərqlərinin aradan qaldırılmasına və s. gətirib çıxarır” [14, s. 114].

Fikrimizcə, tanınmış alim V.Perevedentsevin fikriylə qismən razılaşmaq olar. Təcrübə göstərir ki, çox vaxt əməkçi miqrantlar gəldikləri ölkədə öz ixtisaslarına və real şəraitə uyğunlaşmaları üçün uzun müddət tələb olunur. Bu baxımdan miqrantların real şəraitə uyğunlaşmaları ilə bağlı dövlətlər tərəfindən tətbiq edilən prosudurların mexanizmi fərqli olduğu üçün hər bir dövlətin ərazisində regionların iqtisadi inkişaf səviyyələrinin bərabərləşməsinə, habelə şəhər və kənd arasındakı sosial-iqtisadi və mədəni-məişət fərqlərinin aradan qaldırılmasına nail olmaq mükün deyildir. Hansı ölkənin ərazisində əməkçi miqrantların hüquq və azadlıqlarının qorunması təmin edilir, onların real şəraitə uyğunlaşdırılmasına hərtərəfli və qayğı ilə yanaşılır bu ölkələrdə deyilənlərə nail olmaq mükündür. Təssüflər olsun ki, dünyanın əksər dövlətlərində əməkçi miqrantların hüquq və azadlıqlarına lazımı səviyyədə təmin edilimir.

Çox vaxt əhali miqrasiyasını özünümiqrasiya prosesi kimi də adlandırırlar. Bu prosesi əhalinin ərazi üzrə bölgüsü kimi də səciyyələndirmək mümkündür. Belə ki, əhali miqrasiyası özündə sosial-iqtisadi hadisələri ehtiva etməklə yanaşı, cəmiyyətin təsərrüfat və sosial-siyasi həyatının müxtəlif tərəfləri ilə, o cümlədən onun dəyişiklikləri üzrə yaranmış tendensiyalarla da bağlıdır. Miqrasiya sahəsi üzrə aparılmış tədqiqatlar ona iki aspektdən baxılmasını zəruri edir. Birinci halda, miqrasiya ərazi yerdəyişməsinin başa çatması kimi qəbul olunur. Bu zaman müvafiq miqrasiya məskunlaşma proseslərini əhatə etməklə, daimi yaşayış yerini yerdəyişməsi ilə bağlı olur. İkinci halda, miqrasiya prosesini əhali məskunlaşması kimi də qəbul etmək mümkündür. Müvafiq kontekstdə miqrasiya prosesi istənilən ərazi üzrə yerdəyişməni əhatə etməklə (ayrı-ayrı yaşayış məntəqələri arasında, bir neçə inzibati regional ərazi vahidləri arasında davamlılığından, mütəmadiliyindən və məqsədyönlülüyündən asılı olmayaraq) səciyyələnir [15, s. 25].

Xüsüsilə qeyd etmək lazımdır ki, əhali miqrasiyası proseslərinin özünün nəticəsinə və sosial-iqtisadi xüsusiyyətlərinə görə də fərqlənir. Bu proseslər təkcə sosial, iqtisadi və siyasi faktorlarla deyil, həm də hüquqi faktorların da təsiri nəticəsində meydana gəlir. Əgər XX əsrin əvvəllərində dünyada baş vermiş əhalinin miqrasiyası ilə müasir dövrdə əhalinin miqrasiyası arasında müqayisə aparsaq görərik ki, bu prosesslər həm sosial - iqtisadi həm də siyasi və hüquqi baxımından baş vermə səbəblərinə görə bir-birindən əsaslı sürətdə fərqlənirlər. Bu baxımdan müasir dünyada gedən siyasi və iqtisadi hadisələri nəzərə laraq miqrasiya proseslərini şərti olaraq dörd yanaşma tipinə ayırmaq olar.Birinci yanaşmada miqrasiya prosesləri özünəməxsus əhali hərəkətliliyi olub, ölkə daxilində (sahəvi, ərazi) sosial təkrar bölgünü əhatə edir. İkinci yanaşmadamiqrasiya prosesi mexaniki, peşəkar və sahə yerdəyişmələrinin məcmusu olub, miqrantların əhali strukturuna ərazicə möhkəmləndirilmiş məkan yerdəyişməsidir. Üçüncü yanaşma ondan ibarətdir ki, o, kütləvi, struktur nisbətdə mürəkkəb sosial-demoqrafik proses hesab olunmalıdır. Dördüncü yanaşma ondan ibarətdir ki, miqrasiya məkanda faktiki olaraq istənilən yerdəyişmə olub, yaranmış hüquqi vəziyyətdə əhalinin kütləvi proseslərə münasibət üsuludur. Düşünürəm ki, diqqətə təqdim edilən əhali miqrasiyasının proeseslərinin dörd tipi miqrasiya proseslərinin əsasını təşkil edir.

Əhalinin mobil hərəkətetmə qabilliyyətini “əhali miqrasiyası” termini altında ifadə edirlər. Əhali miqrasiyası onun bir yaşayış məntəqəsindən digərinə getməsi prosesi olub, insanların ərazilərdəki hər cür yerdəyişmələrinin məcmusu kimi nəzərdə tutulur. Əhali miqrasiyası ərazilərin mənimsənilməsində, məhsuldar qüvvələrin inkişafında, etnik birliklərin formalaşmasında əsas amil

kimi qəbul olunur. Qeyrimüəyyən şəkildə həyata keçirilən miqrasiyalar isə cəmiyyətin inkişafında mənfi tendensiyaların, hadisələrin müşahidə olunmasına gətirib çıxarır. J.Zayonçikovskayanın fikrincə XX əsrin əvvəllərindən başlayaraq bütün dünyada müşahidə olunan elmi-texniki inqilablar müxtəlif ölkələrdə siyasi və iqtisadi vəziyyətin dəyişdirilməsinə səbəb olmaqla əhalinin miqrasiya prosesinin sürətlənməsini şərtləndirmişdir [8, s. 90].

Proseslərin tədqiqi yönümündə ilk növbədə nəzərə alınmalıdır ki, miqrasiya prosesi nəinki vətəndaşların artma-azalma dinamikasına, eləcə də yaş və cins quruluşuna, milli tərkibinə, işsizlik səviyyəsinə də təsir göstərir. Məhz bu baxımdan müəyyən ərazi üzrə əhalinin miqrasiya səviyyəsini öyrənmədən, həmin ərazidə iqtisadiyyatın ayrı-ayrı sahələrinin fəaliyyətinin təşkili və idarə edilməsini həyata keçirmək qeyri-mümkündür. Əhali miqrasiyası sosial-iqtisadi inkişafın əsas faktoru kimi dəyərləndirildiyindən onun dinamik inkişaf prosesləri hərtərəfli olaraq öyrənilməlidir. Məhz bu baxımından əhali miqrasiyası proseslərini əks etdirən göstəricilərdən istifadə olunmasına xüsusi önəm verilməlidir. Əhali miqrasiyasının göstəriciləri səciyyələndirən əsas xüsusiyyətlər, mövcud statistik uçotun imkanlarından istifadə etməklə müəyyən nəzəri və praktiki nəticələri üzə çıxarmaqdır.

Miqrasiya sahəsində beynəlxalq təcrübə göstərir ki, onun ən mühüm göstəricilərinə köçənlərin tərkibi, miqrasiyasının intensivliyi, miqrasiya edən əhali strukturu, miqrasiya saldosu və s. aid edilir və onlar miqrasiya prosesini bütünlükdə ölkə, rayon və ayrı-ayrı yaşayış məntəqələri üzrə öyrənilməsində tətbiq olunur. Əhali miqrasiyasının bütün göstəricilərini ilkin, ikinci, mütləq və nisbi göstəricilərə ayırırlar. Nəzərə almaq lazımdır ki, gələnlərin və gedənlərin sayı əsas ilkin göstəricilərə aid edilir. Araşdırma üzrə məlumatları həm statistik hesablamalara, eləcə də sosialoji materiallara əsasən təyin etmək mümkündür. Miqrasiya sahəsi üzrə müvafiq və nisbi göstəricilərin əsasında gələn və gedənlərin sayı, onların fərqi götürülür. Sahəvi məlumatlar əhali miqrasiyası üzrə statistik məlumatlardan, eləcə də ilkin uçot materiallarından əldə olunur. Ümumiyyətlə, miqrasiya proseslərinin öyrənilməsində ən çox gələnlərin və gedənlərin intensivlik göstəricilərindən istifadə edirlər. Gələnlərin intensivlik göstəriciləri müəyyən bir əraziyə gəlmiş əhalinin orta sayının yerli məskunlaşmış əhalinin orta sayına bölünməsi ilə əldə edilir. Bu zaman gedənlərin intensivlik göstəriciləri isə müəyyən bir ərazidən getmiş əhalinin orta sayını yerli məsgunlaşmış əhalinin orta sayına bölməklə təyin edirlər. Qeyd etmək lazımdır ki, miqrasiya dövriyyəsinin intensivlik əmsalı daha çox nəzərə alınır. O, gələn və gedən əhalinin cəminin əhalinin orta sayına bölünməsi ilə müəyyən olunur. Müvafiq göstəricilərdən biri də nisbi göstərici hesab olunur. O, gələnlərlə gedənlərin nisbəti nəticəsində müəyyən olunur [11, s. 112].

Qeyd etmək lazımdır ki, miqrasiya prosesində istifadə olunan əsas göstəricilərdən biri də strukturgöstəriciləridir. Struktur göstəricilərinin tərkibinə daxil olan elementlər miqrasiya prosesinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Lakin nəzərə almaq lazımdır ki, mövcud statistik məlumatlar, uçotun vəziyyətinin tam araşdırılmasını təmin etmir. Əhali miqrasiyasının sahəvi göstəricilər sisteminə daxil olan göstəricilərdən biri də miqrasiya edən əhalinin yaş və cins quruluşunun, o cümlədən milli və sosial tərkibinin öyrənilməsi və s. hesab olunur. Miqrasiya prosesinə cəlb olunmuş əhalinin fəaliyyətini spesifik xüsusiyyətlərə görə fərqləndirmək mümkündür. Onlara miqrasiyanın səbəbləri, fərqli cəhətləri, müddəti, tutduğu ərazilər və s. aiddir. Əhalinin miqrasiya prosesi iqtisadi və siyasi səbəblərə görə fərqlənir. Məsələn, iqtisadi səbəblərdən baş verən əhali miqrasiyası dedikdə, öz iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq üçün bir ərazidən digər əraziyə köçməsi nəzərdə tutulur. Hüquqi səbəblərdən baş verən miqrasiya prosesləri həm beynəlxalq hüquq normaları ilə həm də dövlətdaxili qanunlarla tənzimlənir. Məsələn, qaçqın və ya

məcburi köçkün statusunun verilməsi, sığınacaq və ya siyasi sığınacaq hüququnun verilməsi və s. Miqrasiyanın bu növü beynəlxalq aləmdə mövcud olmuş miqrasiyanın əsas strukturuna daxil edilir. Siyasi səbəblərə görə miqrasiya növü son dövrlər daha çox müşahidə olunmaqdadır. Dünyada baş verən milli münaqişələr bu proseslərin tempini sürətləndirmişdir. Məsələn, Ermənistanın Azərbaycana təcavuzu nəticəsində ölkəmizdə bir milyon nəfərdən çox əhalinin, o cümlədən Ermənistanda yaşayan yüz minlərlə azərbaycanlı əhalinin öz yaşayış məkanlarından zorla köçürülməsi bu növ miqrasiyaya aid edilir. Bu cür təcavuz və münaqişlər həm siyasi həm də hüquqi səbəblərə görə baş verdiyini göstərmək olar.

Əhali miqrasiyası daimi təkrarlanan əhali hərəkətliliyi miqrasiyanın digər növünə daxil edilir. Bu növ miqrasiya proseslərinə digər ölkələrə turizm səfərləri, yaxın qohum və tanışların ziyarəti, təhsillə bağlı, hərbi xidmət və s. məsələlər aiddir. Əhali miqrasiyası dövlət tərəfindən müəyyən əhali qrupunun məskunlaşdırılması kimi də qəbul olunmaqla dövlətlərarası və dövlətdaxili bölgü prinsipinə əsaslana bilir. Məsələn, dövlətlərarası miqrasiya prosesi dedikdə əhalinin bir ölkənin ərazisindən digərinə köçürülməsi nəzərdə tutulur. Dövlətdaxili ərazi miqrasiyası əhalinin bir ərazidən təbii fəlakətlərə (zəlzələ, torpaq sürüşməsi, su daşqınları və s.) və iqtisadi böhrana görə yerdəyişmə prosesidir. Əhali miqrasiyası müddətinə görə də fərqlənir. Onlara bu istiqamətlər aid edilir: Daimi miqrasiya prosesinə yaşayış yerini həmişəlik dəyişənlərə, yaşayış yerini uzun müddətə tərk etmək və s. aiddir. Mövsümi şərtlər əsasında həyata keçirilən əhali miqrasiyası qısa dövr ərzində qayıtmaq şərti ilə (1-3 illiyə yaşamağa, tibb xidmətləri, təhsil xidmətləri almağa gedənlər və s. üzrə) nəzərdə tutulur. Strukturuna görə də miqrasiya prosesləri fərqləndirilir. Onlara əhalinin dünyanın ayrı-ayrı ölkələrinə turizm, ticarət, sənaye mərkəzlərinə, aqrar sahə üzrə istiqamətlənməsi aiddir. Struktur miqrasiyası prosesinə çoxsaylı müxtəlif amillər təsir göstərir. Buraya iqtisadi, tibbi-coğrafi, demoqrafik və s. amillər daxil edilr. Əhalinin miqrasiya prosesinə təsir göstərən amillər ilk növbədə həyat səviyyəsi üzrə göstəricilərdə əks olunur. İqtisadi göstəricilər dedikdə, vətəndaşların aldığı əmək haqqının səviyyəsi, mövcud əmtəə və xidmətlərin bazar qiyməti, dəyəri, əlavə əldə etdikləri gəlirlərin həcmi, sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirin həcmi, yaşayış vasitələrinin dəyəri, istehsal vasitələrinin çoxluğu və s. nəzərdə tutulur. Təbii şərait və coğrafi faktorlar dedikdə, ərazilərin mənimsənilməsi səviyyəsi böyük meqapolislərə, istehsal sənaye mərkəzlərinə yaxınlıq, nəqliyyat-rabitə infrastruktur sahələrinin inkişaf məsələləri, regional iqlim şəraiti nəzərdə tutulur. Vətəndaşların etnik xüsusiyyətləri dedikdə millətlərin miqrasiyaetmə prosesinə meyillik səviyyəsi, assimlyasiya dərəcəsi, ümumi danışıq dilinin götürmə qabiliyyəti, və s. aiddir. Demoqrafiya və etnik amillərə isə əhalinin təbii demoqrafiq göstəriciləri, təbii artım, doğum, ölüm səviyyəsi əhalinin struktur tərkibi, cinsi, yaşı, milli quruluşu və s. daxildir. Məskunlaşma xüsusiyyətləri digər amillərdən daha çox fərqlənir. Məskunlaşma xüsusiyyətləri dedikdə, vətəndaşların məskünlaşma imkanları (yüksək, orta, zəif səviyyə) ərazi məkanlarının böyüklüyü, iqtisadi inkişaf imkanları və s. nəzərdə tutulur. Həyat səviyyəsinə təsir göstərən amillərə mədəni-məişət şəraiti və xidmət səviyyəsi də daxil edilir. Bura yaşayış binalarının miqdarı, keyfiyyətli yaşayış mənzil xidmətinin təklifi, tibb, ticarət, məişət, komunal, təhsil və s. yüksək səviyyəsi daxil edilir. Əhalinin həyat tərzi amili vətəndaşların işlərində ixtisası üzrə (karyera) yüksəlmə imkanları, əmək rejimi, istirahət və məzuniyyət günlərinin miqdarı, ailə cəmiyyətini formalaşdırmaq imkanları, vətəndaşların ailə və iş yerlərində sosialpsixoloji vəziyyəti, məskünlaşma ərazilərində insanların əmək ehtiyatlarına, yaşayış həyat tərzinə tələbin mövcudluğu və s. aid olunur.

Beləliklə, əhali miqrasiyasının nəzəri və metodolojı əsasları ilə bağlı apardığımız araşdırma ilə belə nəticəyə gəlmək olar: Əhali miqrasiyası miqrasiya proseslərinin tərkib hissəsi olmaqla

hüquqi hadisə kimi qiymətləndirilməlidir. Bu baxımdan təklif edirik ki, əhali miqrasiyası hüquqi hadisə olub miqrasiya qanunvericiliyinin obyekti kimi tanınması qanunauyğun hesab edilsin.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. - Bakı: Qanun, 2021. - 160 s.

2. Quliyev A.İ. Hüquq ensiklopediyası. Bakı: Qanun, 2007. – 1108 s.

3. Mehbalıyev S.S., İsgəndərov R.K. Əmək bazarı və əhalinin sosial müdafiəsi. - Bakı: 2002. - 544 s.

4. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. - Bakı: Elm, 2004. - 660 s.

5. Вечканов Г.С. Миграция трудовых ресурсов в СССР: Полит.- экон.аспект. - Л.: Изд-во ЛГУ,1981. – 143 с.

6. Воробьёва О. Д. Миграционные процессы населения: вопросы теории и государственной миграционной политики // Проблемы правового регулирования миграционных процессов на территории Российской Федерации / Аналитический сборник Совета Федерации ФС России - 2003. - № 9 (202). - С. 35.

7. Демографический энциклопедический словарь. - М.: Советская энциклопедия, 1985. – 608 с.

8. Зайончковская Ж.А. Миграционная ситуация в современной России // Человек и труд. - 2005. - № 6. - С.31-37.

9. Ионцев В.А. Международная миграция: теория и история изучения. Научная серия «Международная миграция населения: Россия и современный мир». Вып. 3. - М.: Диалог-МГУ, 1999. – 370 с.

10. Краткий словарь по социологии. - М.: Политиздат, 1988. – 479 с.

11. Международное изучение миграции населения / В.И.Переведенцов: - М.: Наука, 1990. – 112 с.

12. Миграция населения. Выпуск 1. Теория и практика исследования. Приложение к журналу «Миграция в России». - М., 2001. - С. 18.

13. Ожегов С.И., Шведова Н.Ю. Толковый словарь русского языка. 4-е изд. - М.: Азбуковник, 1999. – 944 с.

14. Переведенцев В.И. Методы изучения миграции населения. - М.: Наука, 1975. – 231 с.

15. Потуданская В.Ф., Бояркин Г.Н., Юсова Ю.С. Трудовая миграция как фактор трансформации рынка труда. Омск: изд-во Омск ГТУ, 2004.

16. Хорев Б.С., Чапек В.Н. Проблемы изучения миграции населения. - М., 1998. – 254 с.

17. BBC Доклад ООН: США и Россия - лидеры по числу мигрантов. 2020.

18. Fargues, Philippe. Immigration without Inclusion: Non-nationals in Gulf State Nation Building. Presented at the 2011 Gulf Research Meeting (Workshop 12, Migration in the Gulf), University of Cambridge. 2011).

19. https://az.wikipedia.org/wiki/%C6%8/əhali.

20. https://az.wikipedia.org/wiki/Demoqrafiya.

21. https://az.wikipedia.org/wiki/Miqrasiya.

22. https://ru.wikipedia.org/wiki/Миграция_населения.

**Sadigova A.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.68.139-151**
**UDC: 314.727.2**

## Theoretical and methodological bases of population migration

**Abstract:** The article comparatively analyzes the concepts of population, migration, demography, population mobility, population migration. After studying the theoretical and methodological bases of population migration, the scientific opinions of a number of well-known scientists and experts in this field are considered and a number of proposals are made.

**Keywords:** population; migration; population migration; population mobility; migration processes; demography; internal migration; external migration.

## References

1. Migration Code of the Republic of Azerbaijan. Baku, Qanun Publ., 2021, 160 p. (in Azerbaijani).

2. Guliyev A.I. Law encyclopedia. Baku, Qanun Publ., 2007, 1108 p. (in Azerbaijani).

3. Mehbaliyev S.S. Isgenderov R.K. Mehbalıyev S.S., Labor market and social protection of the population. Baku, 2002, 544 p. (in Azerbaijani).

4. Muradov Sh.,M. Human potential: main trends, realities, problems. Baku, Elm Publ., 2004, 660 p. (in Azerbaijani).

5. Vechkanov G.S. *Migratsiya trudovyh resursov v SSSR: polit.-ekonom. aspekt* [Migration of labor resources in the USSR: Political - economic aspect]. Leningrad, LGU Publ., 1981, 143 p.

6. Vorobyova O.D. Воробьёва О. Д. Migration processes of the population: issues of theory and state migration policy // Problems of legal regulation of migration processes on the territory of the Russian Federation / Analytical collection of the Federation Council of the Federal Assembly of Russia. 2003. No. 9 (202), p. 35. (in Russian)

7. *Demograficheskiy entsiklopedicheskiy slovar'* [Demographic encyclopedic dictionary]. Moscow, Soveit Encyclopedia Publ., 1985, 608 p.

8. Zayonchkovskaya Zh.A. *Migratsionnaya situatsiya v sovremennoy Rossii* [Migration situation in modern Russia]. *Chelovek i trud – Man and labour*. 2005. No. 6, pp. 31-37.

9. Iontsev V.A. *Mezhdunarodnaya migratsiya: teoria i istoria izucheniya. Nauchnaya Seria Mezhdunarodnaya migratsiya naseleniya: Rossiya i sovremenny mir* [International migration: theory and history of study. Scientific series "International population migration: Russia and the modern world".]. Issue 3. Moscow, Dialogue-MGU, 1999, 370 p.

10. *Kratky slovar' po sotsiologii* [Brief dictionary on sociology]. Moscow, Politizdat Publ., 1988, 479 p.

11. *Mezhdunarodnoe izuchenie migratsii naseleniya* [International study of population]. Moscow, Nauka Publ., 1990, 112 p.

♦ **Sadigova Afag Nadir** - Senior Researcher of the "Civil law, civil process, socio-economic rights" Department of the public legal entity "Institute of Law and Human Rights" under the public legal entity "Center for Legal Expertise and Legislative Initiatives" (Azerbaijan). E-mail: afaqsadiqova6@gmail.com

12. *Migratsiya naseleniya. Vypusk 1. Teoria i praktika issledovaniya. Prilozhenie k zhurnalu Migratsiya naseleniya* [Migration of population. Theory and practice of research. Issue 1. Attachemt ot journal Migration in Russia]. Moscow, 2001, p. 18.

13. Ozhegov S.I., Shvedova N.Yu. *Tolkovyi slovar' russkogo yazyka* [Explanatory dictionary of Russian language]. Moscow, 1999, 944 p.

14. Perevedentsev V.I. *Metody izucheniya migratsii naseleniya* [Methods of study of population migration]. Moscow, Nauka Publ., 1975, 231 p.

15. Potudanskaya V.F., Boyarkin G.N., Yusova Yu.S. *Trudovaya migratsiya kak factor transformatsii rynka truda* [Labor migration as a factor in the transformation of the labor market]. Omsk, Omsk GTU Publ., 2004.

16. Khorev B.S., Chapek V.N. *Problemy izucheniya migratsii naseleniya* [Problems of the study of population migration]. Moscow, 1988, 254 p.

17. *BBC Doklad OON: SSHA i Rossia – lidery po chislu migrantov* [UN Report: USA and Russia – leaders on migrant's number]. 2020.

18. Fargues, Philippe. Immigration without Inclusion: Non-nationals in Gulf State Nation Building. Presented at the 2011 Gulf Research Meeting (Workshop 12, Migration in the Gulf), University of Cambridge. 2011).

19. https://az.wikipedia.org/wiki/%C6%8/əhali.

20. https://az.wikipedia.org/wiki/Demoqrafiya.

21. https://az.wikipedia.org/wiki/Miqrasiya.

22. https://ru.wikipedia.org/wiki/Миграция_населения.

**Садыгова А.Н.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.68.139-151**
**УДК: 314.727.2**

**Теоретические и методологические основы миграции населения**

**Аннотация:** Проводится сравнительный анализ понятий народонаселение, миграция, демография, мобильность населения, миграция населения. После изучения теоретико-методологических основ миграции населения рассмотрены научные мнения ряда известных ученых и специалистов в этой области и внесен ряд предложений.

**Ключевые слова:** население; миграция; миграция населения; мобильность населения; миграционные процессы; демография; внутренняя миграция; внешняя миграция.

**Библиография**

1. Миграционный кодекс Азербайджанской Республики. - Баку: Ганун, 2021. - 160 с. (на азерб. яз.).

2. Гулиев А.И. Юридическая энциклопедия. - Баку: Ганун, 2007. – 1108 с.

♦ **Садыгова Афаг Надир кызы** – старший научный сотрудник отдела «Гражданское право, гражданский процесс, социально-экономические права» публичного юридического лица «Институт права и прав человека» при публичном юридическом лице «Центр правовой экспертизы и законодательных инициатив» (Азербайджан). E-mail: afaqsadiqova6@gmail.com

3. Мехбалыев С.С., Искендеров Р.К. Рынок трудовых ресурсов и социальная защита населения. - Баку: 2002. - 544 с. (на азерб. яз.).

4. Мурадов Ш.М. Человеческий потенциал: основные направления, реальность , проблемы. - Баку: Элм, 2004. - 660 с. (на азерб. яз.).

5. Вечканов Г.С. Миграция трудовых ресурсов в СССР: Полит.- экон.аспект. - Л.: Изд-во ЛГУ,1981. – 143 с.

6. Воробьёва О. Д. Миграционные процессы населения: вопросы теории и государственной миграционной политики // Проблемы правового регулирования миграционных процессов на территории Российской Федерации / Аналитический сборник Совета Федерации ФС России. - 2003. - № 9 (202). - С. 35.

7. Демографический энциклопедический словарь. - М.: Советская энциклопедия, 1985. – 608 с.

8. Зайончковская Ж.А. Миграционная ситуация в современной России // Человек и труд. - 2005. - № 6. - С.31-37.

9. Ионцев В.А. Международная миграция: теория и история изучения. Научная серия «Международная миграция населения: Россия и современный мир». Вып. 3. - М.: Диалог-МГУ, 1999. – 370 с.

10. Краткий словарь по социологии. - М.: Политиздат, 1988. – 479 с.

11. Международное изучение миграции населения / В.И.Переведенцов: - М.: Наука, 1990. – 112 с.

12. Миграция населения. Выпуск 1. Теория и практика исследования. Приложение к журналу «Миграция в России». - М., 2001. - С. 18.

13. Ожегов С.И., Шведова Н.Ю. Толковый словарь русского языка. 4-е изд. - М.: Азбуковник, 1999. – 944 с.

14. Переведенцев В.И. Методы изучения миграции населения. - М.: Наука, 1975. – 231 с.

15. Потуданская В.Ф., Бояркин Г.Н., Юсова Ю.С. Трудовая миграция как фактор трансформации рынка труда. - Омск: изд-во Омск ГТУ, 2004.

16. Хорев Б.С., Чапек В.Н. Проблемы изучения миграции населения. - М., 1998. – 254 с.

17. BBC Доклад ООН: США и Россия - лидеры по числу мигрантов. 2020.

18. Fargues, Philippe. Immigration without Inclusion: Non-nationals in Gulf State Nation Building. Presented at the 2011 Gulf Research Meeting (Workshop 12, Migration in the Gulf), University of Cambridge. 2011).

19. https://az.wikipedia.org/wiki/%C6%8/əhali.

20. https://az.wikipedia.org/wiki/Demoqrafiya.

21. https://az.wikipedia.org/wiki/Miqrasiya.

22. https://ru.wikipedia.org/wiki/Миграция_населения.